**UDC:** 32.; 323.;
**LBC:** (2) (5Arm); 3-, -36; 63.3(2)6-4
**MJ №** 293
10.33864/2617-751X.2025.v8.i3.231-243

# THE FIRST ARMENIAN TERRORIST ORGANIZATIONS

**Turkan Maharramova***

**Abstract.** The article describes the history of the formation of Armenian terrorist organizations, their political ideology, activities and their impact. The first Armenian terrorist organizations began to emerge as a result of the struggles related to the Ottoman Empire and Iran in the late 19th and early 20th centuries. These organizations mainly operated with the aim of defending Armenian nationalism and the rights of the Armenian people. Over time, these organizations tried to ensure the freedom of the Armenian nation by participating in more revolutionary and terrorist activities, but these activities also caused tensions in the region. The goals and activities of the organizations are historically complex. Thus, the goals of Armenian terrorist organizations changed at different times and in different circumstances. Armenian terrorism, which emerged at the end of the 19th century and rapidly increased in the middle of the 20th century, became a major threat to the countries of the region and beyond with more than 200 terrorist acts that took place on four different continents, including Europe, Asia, America and even Australia. Born from extreme nationalist sentiment and inspired by the dream of creating a "Greater Armenia", Armenian terrorism constantly adapted to the changing political goals of Armenians.

**Keywords:** political ideology, nationalist, terrorist organization, struggle

* Dissertation student of the National Defense University; Baku, Azerbaijan
E-mail: turkanmaharramova01@gmail.com
https://orcid.org/0009-0007-0659-0629

**To cite this article:** Maharramova, T. [2025]. THE FIRST ARMENIAN TERRORIST ORGANIZATIONS. *“Metafizika” journal, 8*(3), pp.231-243.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.231-243

***Article history:***
*Received: 15.01.2025*
*Accepted: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.;
**ББК:** (2) (5Arm); 3-, -36; 63.3(2)6-4
**MJ №** 293
10.33864/2617-751X.2025.v8.i3.231-243

# ПЕРВЫЕ АРМЯНСКИЕ ТЕРРОРИСТИЧЕСКИЕ ОРГАНИЗАЦИИ

**Туркан Магеррамова***

**Абстракт.** В статье излагается история формирования армянских террористических организаций, их политическая идеология, осуществляемая ими деятельность и их влияние. Первые армянские террористические организации начали возникать в конце XIX- начале XX веков в результате борьбы с Османской империей и Ираном. Эти организации действовали в первую очередь с целью защиты армянского национализма и прав армянского народа. Со временем эти организации пытались обеспечить свободу армянского народа, участвуя в более революционной и террористической деятельности, однако эта деятельность также вызывала напряженность в регионе. Цели и деятельность организаций исторически сложны. Таким образом, цели армянских террористических организаций менялись в разное время и при разных обстоятельствах. Армянский терроризм, возникший в конце 19 века и стремительно усилившийся в середине 20 века, стал серьезной угрозой для стран региона и за его пределами: на четырех континентах, включая Европу, Азию, Америку и даже Австралию, произошло более 200 террористических актов. Рожденный из крайних националистических настроений и вдохновленный мечтой о создании «Великой Армении», армянский терроризм постоянно адаптировался к меняющимся политическим целям армян.

**Ключевые слова:** политическая идеология, националист, террористическая организация, борьба

---

* Диссертант Национального Университета Обороны; Баку, Азербайджан
E-mail: turkanmaharramova01@gmail.com
https://orcid.org/0009-0007-0659-0629

**Цитировать статью:** Магеррамова, Т. [2025]. ПЕРВЫЕ АРМЯНСКИЕ ТЕРРОРИСТИЧЕСКИЕ ОРГАНИЗАЦИИ. *Журнал «Metafizika», 8(3),* с.231-243.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.231-243

***История статьи:***
*Статья поступила в редакцию:* 15.01.2025
*Отправлена на доработку:* 25.02.2025
*Принята для печати:* 02.06.2025

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.;
**KBT:** (2) (5Arm); 3-, -36; 63.3(2)6-4
**MJ №** 293
10.33864/2617-751X.2025.v8.i3.231-243

# İLK ERMƏNİ TERROR TƏŞKİLATLARI

**Türkan Məhərrəmova***

**Abstrakt.** Məqalədə erməni terror təşkilatlarının yaranma tarixi, siyasi ideologiyası həyata keçirdikləri fəaliyyətlər və onların təsiri qeyd edilmişdir. İlk erməni terror təşkilatları XIX əsrin sonu və XX əsrin əvvəllərində Osmanlı İmperiyası və İranla əlaqəli mübarizələr nəticəsində yaranmağa başladı. Bu təşkilatlar, əsasən, erməni millətçiliyini və erməni xalqının hüquqlarını müdafiə etmək məqsədini güdərək fəaliyyət göstərirdilər. Həmin təşkilatlar, zamanla daha çox inqilabi və terror fəaliyyətlərində iştirak edərək erməni millətinin sərbəstliyini təmin etməyə çalışmış, lakin bu fəaliyyətlər həm də regionda gərginliklərə səbəb olmuşdur. Təşkilatların məqsədləri və fəaliyyətləri tarixi baxımdan mürəkkəbdir. Belə ki, erməni terror təşkilatlarının məqsədləri müxtəlif dövrlərdə və müxtəlif şəraitlərdə dəyişmişdir. XIX əsrin sonlarında yaranmış və XX əsrin ortalarında sürətlə artan erməni terrorizmi Avropa, Asiya, Amerika və hətta Avstraliya da daxil olmaqla dörd müxtəlif qitədə baş verən 200-dən çox terror aktı ilə region ölkələri və onun hüdudlarından kənarda əsas təhlükəyə çevrilmişdir. İfrat millətçilik əhval-ruhiyyəsindən doğan və "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni terrorizmi daim ermənilərin dəyişən siyasi məqsədlərinə uyğunlaşırdı.

**Açar sözlər:** siyasi ideologiya, millətçi, terror təşkilatı, mübarizə

* Milli Müdafiə Universitetinin dissertantı; Bakı, Azərbaycan
E-mail: turkanmaharramova01@gmail.com
https://orcid.org/0009-0007-0659-0629

**Məqaləyə istinad:** Məhərrəmova, T. [2025] İLK ERMƏNİ TERROR TƏŞKİLATLARI. *"Metafizika" jurnalı, 8*(3), səh.231-243.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i3.231-243

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 25.02.2025*
*Çapa qəbul edilmişdir: 02.06.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Bəzi müəlliflər qeyd edirlər ki, ermənilərin fəallaşmasında əsas məqam Berlin konqresi oldu və bununla da onlar açıq fəaliyyət göstərməyə başladılar. Bu fikirin əksinə olaraq bəzi erməni və türk müəllifləri ermənilərin təsis etdiyi ilk cəmiyyətin 1860-cı ildə İstanbulda yaradılan "Xeyirsevər cəmiyyəti" olduğunu qeyd ediblər. Bu cəmiyyətin üzvləri gizli şəkildə görüşlər keçirir və gələcəkdəki üsyan haqda planlar qururdular.

Erməni müəllifi Y.Sarkisyan kitabında XIX əsrin 60-70-ci illərində Osmanlı ərazisində bir sıra erməni cəmiyyətlərinin və təşkilatlarının yarandığını göstərmişdir. Onun qeyd etdiyi gizli erməni cəmiyyətləri bunlardır:

- Xeyriyyə Cəmiyyəti - 1860-cı ildə Kilikiyanın müstəqilliyi üçün yaradılmışdı.
- -Ser (Sevgi) cəmiyyəti - 1866-cı ilin mayın 7-də İstanbulda yaradılmışdır. Hətta masonluğun lojasını daşıyan logo"birlik, sevgi, təhsil, iş, azadlıq" mənasını verirdi.
- Araratyan - 1876-cı ildə İstanbulda yaradıldı.
- Məktəb sevərlər - 1870-ci ildə İstanbulda yaradıldı.
- Şərq - 1879-cu ildə İstanbulda yaradıldı.
- Kilikiya - 1879-cu ildə İstanbulda yaradıldı. Daha sonra bu cəmiyyətlər birləşərək 1880-ci ildə "Erməni Birləşmiş Cəmiyyəti" adlandırıldı. Bundan əlavə əsasən Anadolu bölgəsində müstəqil halda öz fəaliyyətlərini davam etdirən digər erməni cəmiyyətləri aşağıdakılar idi:
- Silahlanmışlar Cəmiyyəti (1880-ci il Ərzurum)
- Qadınlar Cəmiyyəti (1880-ci il Ərzurum)
- Qurtuluş üçün birlik(1872-ci il Van)
- Ana vətən müdafiəçisi (1881-ci il Ərzurum)
- Qara xaç cəmiyyəti"(1872-ci il Van)

Ümumilikdə bu cəmiyyətlərin yaradılmasında tək meyar erməni gənclərinin silahlandırılmasını və üsyana cəlb edilməsini təşkil etmək idi. Osmanlı ərazisində fəaliyətdə olan Ararat, Şərq, Mühübbi maarif, Kilikiya dərnəkləri 1880-ci ildə "Miyasiyal Anikerutiun Hayodes" adlı cəmiyyətdə birləşdilər. [Hacıyev, 1997. s.56-57]

## 2.Armenakan partiyası

İlk erməni milli partiyası olan Armenakan hələ "Qara xaç"əməliyyatlarının keçirildiyi yerdə - Van şəhərində yarandı. İstanbullu varlı bankirin oğlu Mıkrtiç Portuqalyan tərəfindən yaradılmışdı. O, Vanda açdığı məktəblərlə bağlı siyasi fəaliyyətinə görə Vandan sürgün olunaraq Fransanın Marsel şəhərində məskunlaşdı. Həmin şəhərdə "Armenia" adlı qəzet nəşr etdirməyə başladı. Sonradan həmin qəzet "Erməni vətənpərvər cəmiyyəti"nə çevrilərək

üzvləri pul və silah-sursat təmin etməyə başladı. Portuqalyan ruhdan düşmüş “Qara xaç”ın keçmiş üzvlərini yenidən bir araya topladı. Erməni tarixinin araşdırmaçısı Christopher Walker-ə bu barədə belə qeyd etmişdir: “*Portuqalyan tərəfindən başladılan bu aydınlatma qısa zamanda erməni terrorist səhnəsinin barbarlığında yox oldu*” [Feigl, 2007. s.70].

Beləliklə, onlar 1885-ci ildə ciddi məxfilik şəraitində Van şəhərində ilk siyasi partiyalarını yaratmağa müvəffəq oldular. Onun üzvləri partiyanın adını Portuqalyanın müəllifi olduğu qəzetin adıyla “Armenakan” adlandırdılar. Partiyanın faktiki yaradıcısı və rəhbəri Mıkrtiç Terlemezyan idi. 1890-cı ildə Armenakan öz ilk proqramını hazırladı. Proqramda deyilirdi: “*Yalnız ermənilər bu partiyanın üzvü ola bilərlər. Ali məqsədə nail olmaq üçün erməni millətçiləri birləşməli, partiya üzvləri silahdan istifadə etməyi öyrənməli, partizan dəstələri yaratmalıdırlar*”.

Əsas hədəf “Osmanlı rejimini inqilab yolu ilə devirmək idi. Onlar başa düşürdülər ki, erməni millətçiləri inqilaba hazırlamaq üçün silahli dəstələr yaratmaq lazımdır. Sözsüz ki, bunun üçün silah-sursat əldə etmək lazımdır. Armenakançı gənclər “Armenia” qəzetinin nümunələrini və silah-sursatı daşıyan zaman həlak oldular.

Armenakan öz qəzetlərində məqsədyönlü şəkildə hadisələri şişirtmiş, həlak olanları türklərin ayağına yazmışdır. Həmin partiyanın filialları Muşda, Bursada, Trapezundda, İstanbulda, İranda, ABŞ-da, Cənubi Qafqaz quberniyalarında yaradılmışdı [Nəcəfov, 2001. s.48].

Armenakançıların fəaliyyəti Vanda 1890-cı illlərin ikinci yarısında kütləvi xarakter aldı. 1896-cı ildə Vanda baş verən döyüşlərə şəxsən Mıkırtiç Terlemezyan rəhbərlik edirdi. Armenakan hnçaqçılar və daşnaklarla birlikdə mütəşəkkil hərəkət edirdi. Terlemezyan bir qrup gənclə İrana gedən yolda həlak oldu. Partiya itkilər versə də XX əsrin 20-ci illərinə kimi öz mövcudluğunu saxlaya bildi. 1921-ci ildə isə fəaliyyətini dayandıraraq, digər partiyalarla birləşdirildi. Nəticədə “Ramkavar” (Azad Demokrat Partiyası) adlı yeni partiya yaradıldı [Мустафаев, 2002. s.24].

**3.Hnçaq partiyası**

1887- ci ildə İsveçrənin Cenevrə şəhərində oxuyan bir qrup milliyətçi erməni tələbə “Armenia”qəzetinin redaktoru olan M.Portuqalyana müraciət edirlər. Onlar təklif edirlər ki, üsyançı qüvvələri toplasınlar və birgə inqilabi partiya yaratsınlar. Portuqalyan gənclərin müraciətini qəzetində nəşr etdirsə də, özü bu müraciəti rədd edir. Bundan sonra Cenevrə qrupu “Armenia”- dan uzaqlaşdı. 1887-ci ildə özlərinin “Hnçaq” qəzetini nəşr etdirməyə başlayırlar. Qəzet Gertsenin və Oqaryovun “Kolokol” qəzetinin adına uyğun olaraq belə adlandırılır. Hnçaqın rəhbər üzvləri Avetis Nazarbekyan, Maro Vartanyan, Ruben Xanazad və başqaları idi. Onların fikirlərinin formalaşmasına

Cenevrədə işləyən Q.Plexanovun "Əməyin azad edilməsi" marksist qrupu ilə əməkdaşlıq xüsusi təsir göstərmişdir. 1888-ci ildə "Hnçaq" qəzetində partiyanın ilk proqramı dərc olunur. Burada partiya fəaliyyətinin yaxın və uzaq məqsədləri nəzərdə tutulmuşdu. Yaxın məqsədlərə ermənilərin Osmanlıdan ayrılması daxil idi. Sözsüz ki, bunu həyata keçirmək üçün əsas vasitələr təbliğat, təşviqat və terror idi. Türkiyə erməniləri azad edildikdən sonra onların planlarında İran və Rusiya ermənilərinin azad edilməsi vəzifəsi dururdu. Sonda isə ermənilərin birləşdirilməsi nəticəsində demokratik respublika yaradılmalı idi. Uzaq məqsədlərə isə sosializmin qurulması aid idi. Onlara görə sosializmin qurulması ilə insanın insan tərəfindən istismarına son qoyulacaqdı. Dərc olunmuş bu proqramla Hnçaq partiyasının yaradılması elan olundu. 1889- cu ildə Hnçaq üzvləri Xanazad və Kafyan İstanbula getdilər və məşhur ictimai siyasi xadimlərlə görüşdülər. İstanbulda siyasi aktivist, yazıçı, ictimai xadim kimi tanınan Arpiyar Arpiyaryan Hnçaqın məqsədlərini məqbul hesab etdi və özünün qrupu ilə birlikdə partiyaya qoşuldu [Малевил, 1915. s.82-83].

Hnçaq paritasının nizamnaməsinin 4-cü maddəsində göstərilirdi: "Osmanlı ərazisində inqilab terror yolu ilə həyata keçirilməlidir. Terror xalqda ruh yüksəkliyi yaratmaq üçün gərəkdir. Terror xalqı müdafiə etmək metodudur. Xalqın etimadını qazanmaq vasitəsidir. Partiya Osmanlı dövlətinə qarşı terrora üstünlük verirdi. Terror obyektləri sırasına türk hökuməti məmurları, erməni mənşəli məmurlar, və casuslar daxil edilirdi [Qazıyev, 2009. s.117-118].

Beləliklə 1890-cı ildə Trabzonda Hnçaqın ilk filialı açıldı. Filial İstanbuldakı ermənilərlə əlaqələr yaratdı. Həmin ildə Hnçaq tərəfindən təşkil olunan Qum Qapı nümayişi uğursuzluğa düçar oldu.

Buna baxmayaraq, fəaliyyətini genişləndirməyə müvəffəq olan Hnçaq komitəsi İstanbulda özünün yeni şöbəsini açmağa qərar verdi. Bunun nəticəsi kimi Tiflisli Şamavon, Trabzonlu Ruben Hanazad, Batumlu Vezavayan və İran ermənilərindən S.Damoilyan İstanbulda toplantı keçirdilər, beləliklə Hnçaqın İstanbul təşkilatı yarandı. Komitə fəaliyyətini tək İstanbulda yekunlaşdırmayaraq daha sonra Osmanlının digər bölgələrində İzmirdə, Hələbdə geniş şəkildə davam etdirdi. Onların məqsədyönlü səyləri nəticəsində Osmanlıda ixtilaflar, erməni-türk qarşıdurması yaşanmağa başlandı. Bu haqda 28 oktyabr 1895-ci il tarixli İngiltərənin Trabzondakı konsulunun ingilis səfirinə yazdığı məktubda söhbət açılıb. Məktubda deyilir: "*Hnçaqçılar planladıqları hərəkatları uzaqdan idarə edirlər. Onlar özləri tamamilə təhlükəsizlikdə olduqları halda, Osmanlı dövlətində din qardaşlarının həyatını dayanılmaz hala gətirirlər. Onların məqsədləri müsəlmanları xristianlara qarşı təhrik etmək, qətliamlar törətmək, məmləkəti dəhşətlər içərisində buraxmaqdır. Bütün dünya bilməlidir ki, bu komitənin anarxiya yaradacaq bir xüsusiyyəti vardır*".

Hnçaq komitəsinin əsas hədəfi Şərqi Anadolunu erməni torpağına” çevirdikdən sonra, İran, Azərbaycan və Rusiyanın Xəzər dənizinə qədər olan Qafqaz torpaqlarına sahib olmaq və “Böyük Ermənistan” dövləti qurmaq idi. Hnçaq komitəsinin proqramı marksist, sosialist və mərkəziyyətçi ideyaların məcmusundan ibarət idi. Hnçaq ilk siyasi proqramında öz ideyasını belə açıqlamışdır: “*...Osmanlı Ermənistanı haqqında bu dərin qənaəti daşıyırıq: Onların tərəqqilərinə əngəl olan zəncirlər mütləq qırılmalı, bura siyasi müstəqilliyə sahib olmalıdır*”.

Hnçaq “Böyük Ermənistan” xəyalını həyata keçirmək üçün özünün pozuculuq hərakatını həyata keçirməyə başlayır. 1890-cı il iyulun 15-də Hnçaqın tapşırığı ilə İstanbulda terror aksiyası baş verir. Aksiyada 17 nəfər ölən və yaralanan olur. Bununla kifayətlənməyən hnçaqçılar 1895-ci il iyulun 12-də İstanbulda türk uşaqları oxuyan məktəbi, 30 evi, 20 dükanı, Amasiyada 58 evi, 165 dükanı yandırdılar. Hnçaqın ən böyük addımı Osmanlı sultanı Əbdül Həmidə qarşı həyata keçirdikləri sui-qəsddir. Hadisə 1905-ci ildə Sultan Əbdül Həmidin hər zamankı kimi Ulduz Camisində namazını qıldıqdan sonra baş vermişdir. Plana görə əgər sui-qəsd baş tutsaydı, daha sonra Qaraköy körpüsünü, tunel və ona bənzər obyektlərin partladılması nəzərdə tutulurdu. [Qazıyev, 2009. s.118-119]

İstanbulda “Hnçak”ın iki təşkilatı vardır: 1.İdarə 2.İcraçı. İdarənin təlimatına görə, Osmanlı ərazisində bütün qiyamların direktivləri onun tərəfindən hazırlanırdı. İcraçı, yəni İcra Komitəsi İdarənin direktivlərini alaraq, aksiyalar təşkil edirdi. İdarənin və İcra Komitəsinin üzvləri bir-birlərini tanımırdılar, onlar arasında əlaqə yaradan şəxs hər iki idarənin üzvü idi. Bu federasiya çərçivəsində 1891-ci ilin iyulunda Afinada anti-türk nümayişi keçirildi. Təşkilatçılar içərisində ən çox fərqlənən Mixran Damadyanın rəhbərliyi ilə 1892-ci il ərzində Türkiyənin bir çox rayonlarında yeni hadisələr baş verdi. Baş vermiş hadisələr sonrakı üsyan və təxribatlara zəmin hazırladı.

Hnçaq komitəsi 3 boyunduruq (Türkiyə, Rusiya, İran) altında əzilən erməni milləti üçün ideal bir fikir irəli sürdü. Həmin fikrdə bütün mədəni məmləkətlərdə işçi və kəndli sinfinin birləşməsi, siyasi bir nüfuzun yaradılması, kommunist ixtililalını həyata keçirilməsi dəstəklənirdi. Onların qayəsinə görə iqtisadi sərbəstlik bütün ermənilərin qurtuluşu demək idi. İstehsalat vasitələri cəmiyyətin malı olmalı idi. Onlar milli ideologiyanı üstün tutaraq düşünürdülər ki, yad idarə, vergi və maliyyə erməniləri əzir. Ona görə köhnə idarə üsullarının erməniləri əzməməsi üçün onların sosializmi qəbul etməsi lazım idi. Buna nail olmaq üçün ilk əvvəl üsyan qaldıraraq, kapitalist hakim sinifləri yox etməli, əsarət vəziyyətindən qurtulmalı idilər. 1895-ci ildə “Xistorama” jurnalının 16-cı sayında Hnçaqın proqramının bir hissəsi nəşr olundu. Proqramın əvvəlində “Hər bir şəraitdə kürdləri və türkləri qırmaq, öz

məqsədlərinə xəyanət edən ermənilərə aman verməmək və onlardan intiqam almaq" şüarı göstərilirdi.

Proqramın I bölməsində - ümumi sosial prinsiplər əks olunmuşdur. İstehsal vasitələrinə yiyələnməklə zəhmetkeş kütlələrin əli ilə iqtisadi köləliyin ləğvi və ədalətli cəmiyyətin qurulması mümkün hesab edilirdi. Proqramda ermənilər Marks-Engelsin müddəalarını - mövcud quruluşun eybəcərliklərini və ədalətsizliyini tənqid edirdilər.

Proqramın II bölməsində erməni millətçilərinin müasir vəziyyəti təsvir olunurdu. Söhbət Rusiya imperiyası ərazisində yaşayan ermənilərdən gedirdi. Burada monarxiya zülmü, ağır vergilər və ermənilərin çətin şəraiti göstərilirdi. Bu bölmədə həm də partiyanın məqsədi açıqlanırdı. Məqsəd çevriliş təşkil etməklə monarxiya qaydalarını ləğv etmək və demokratik konstitusiyalarını yaratmaq idi.

Proqramın III bölməsində Osmanlı ermənilərinin vəziyyətinə həsr olunmuşdu. Bildirilirdi ki, guya ermənilər qorxu altında yaşayır. Osmanlı ərazisində daxili çaxnaşmalar, sarsıntı və hərbi uyğunsuzluq hökm sürdüyünü qeyd edirdi. Buna görə də partiyanın əsas hədəfi elə türk ağaları olmalı idi. Bu proqramda həm də ermənilərinin taleyinin türklərin taleyindən ayrılmağın vaxtı gəlib çatdığını qeyd edirdi.

Proqramın IV bölməsində-Osmanlı hökumətinə qarşı mübarizə yolu və vasitələri müəyyənləşdirilmişdir.

V bölmədə isə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün erməni terroçularına kömək edəcək qüvvələrin təşkil olunması məsələləri daxil edilmişdir. Bu bölmədə hnçaqçıların ən böyük arzularının İsveçrədə olduğu kimi Asiyanın bütün az saylı xalqlarının ümumi ittifaqını təşkil etməklə qalan xalqların Osmanlı hökümətinin əsarətindən qurtulmağın mümkün olacağını bildirirdilər [Nəcəfov, 2001. s.48-53]. Bununla dırnaqarası dostluq nümayiş etdirərək müəyyən siyasi təbliğatlar aparmaq Osmanlı imperiyasında daxili sabitliyin pozulmasına yönələn fəaliyyətlər həyata keçirilməsi planlanırdı.

Qısa zamandan sonra Hnçaq komitəsində ikitirəlik yarandı. Partiyanın daxilində sosializmə aid fikir ayrılıqları yaranmağa başladı. Bunu nizama salmaq üçün 1896-cı ildə Londonda deputatlar iclası çağrıldı. Orada iştirak edən osmanlı erməniləri A.Arpiaryan və M.Tamatyanın adından tələb edirdilər ki, partiya sosializm təbliğatından və mərkəzləşdirilmiş rəhbərlik prinsipindən imtina etsin. Nəticədə partiya ikiyə ayrıldı. Komitənin bir hissəsi Avetisin, digər hissəsi isə yeni lider Aspiar Arpiaryanın arxasınca getməyə başladılar. Ancaq hər iki tərəfin proqramında gözə çarpacaq qədər ciddi dəyişiklik yox idi. Buna baxmayaraq onlar arasında ixtilaflar şiddətlə genişləndi. Qahirə, London, Peterburq, Sofia, Tehran və digər şəhərlərin küçələrində cəsədlər

peyda oldu. Ermənilərin bu daxili çaxnaşması sonralar Hnçaqın bir təşkilat kimi əhəmiyyətinin itirməsinə səbəb oldu [MeCarthy,1989. s.34].

**4.Daşnaksütyun partiyası**

O zamanlar hələ Hnçaq komitəsinin daxilində çəkişmələr davam edərkən bu vəziyyətdən narazı olanlar 1890-cı ildə "Droşak" (ermənicə bayraq deməkdir) adlı bir qəzet yayımladılar. Qəzetdə öz düşüncələrini və tənqidlərini açıqlamağa başladılar. Daha sonra federasiya mənasına gələn dərnək qurdular. Dərnək fəaliyyət nəticəsində adını dəyişərək Daşnaksütyun yəni tam ifadəsilə (Erməni İxtilal Cəmiyyəti İttifaqı) adlı komitəsində birləşdilər.

Daşnaksütyun komitəsinin qurulmasında məqsəd Tiflisdə qurulan "Gənc Ermənistan", mərkəzi Vanda yerləşən "erməni cəmiyyəti-Armenaqanlar"ı, "Hnçaq komitəsi"ni birləşdirmək və Rusiyadan Türkiyəyə keçəcək dəstələrə yardım etmək idi. 1892-ci ildə Cenevrədə Daşnaksütyunun I qurultayı keçirildi. Qurultayda qərara alındı ki, "demokratik erməni respublikası"nın yaradılması üçün silahlandırılmanı təşkil etmək, Osmanlı hökumət idarələrini dağıtmaq lazımdır.

Daşnaksütyunun daxilində ciddi nizam - intizam yaradılmış, məxfiliyə xüsusi diqqət yetirilirdi. Partiyanın strukturu mürəkkəb idi, sanki kiçik dövlət modelini xatırladırdı. Təşkilatın ilk orqanları "xumba"lar adlanırdı. Tərkibi 7-10 daşnakdan ibarət olurdu. Yarım komitə xumbaların rəhbərlərindən seçilirdi və o daha üst qurum sayılırdı. Komitə burada məhkəmə funksiyasını yerinə yetirirdi. Müəyyən ərazidə yerləşən komitələr mərkəzi komitədən asılı idilər. 1903-cü ildə Daşnaksütyun özünün III qurultayını Vyanada keçirdiyi zaman, artıq Bakı, Tiflis, İrəvan, Şuşa, Moskva, Peterburq, Odessa, Tehran, Təbriz, Cenevrə, Paris, London, Boston və daha neçə məkanda onun mərkəzi komitələrinin sayı 21-ə çatmışdı.

Hər bir mərkəzi komitə tam hakimiyyətə mailk idi. O muxtar hüquqlara, edam cəzası vermək kimi funksiyaları həyata keçirə bilərdi. Mərkəzi komitələrə şərq bürosu və qərb bürosu rəhbərlik edirdi. Rusiya, Türkiyə və İrandakı mərkəzi komitələr şərq bürosuna, Avropa, Amerika, Afrikadakı mərkəzi komitələr qərb bürosuna tabe idilər. Sonralar 1907-ci ildən bəzi mərkəzi komitələri qrup halında idarə etmək üçün 5-7 adamdan ibarət "Məsul" orqanlar yaratdılar. Partiyada müəssisələr məclisinə bənzər 3 rayon yığıncağı fəaliyyət göstərirdi: Qafqaz, Ermənistan və Avropa yığıncaqları. Bu yığıncaqlar toplantılarını xarici siyasət məsələləri, partiyanın taktikasının dəyişdirilməsi və müzakirəsi ilə bağlı təşkil edirdilər. Qafqaz yığıncağı Rusiyadakı daşnak təşkilatlarına nəzarət edirdisə, Ermənistan yığıncağı İran və Türkiyə, Avropa yığıncağı isə digər xarici dövlətlərdə olan daşnak təşkilatlarına nəzarət edirdi. Partiyada "İttifaq şurası" ümumi yığıncağı həyata keçirirdi. Bu yığıncaq gec təşkil olunurdu. Partiyanın əsas hərəkətverici

komitəsi “terroçu hazırlayan komitəsi”ni vurğulamaq tam yerinə düşərdi. Bu komitə 3 nəfərdən ibarət idi və Ali ittifaq şurasına tabe idi. Şura birbaşa terrorçu orqanların fəaliyyətinə rəhbərlik edirdi. Digər bir orqan xüsusi təftiş orqanı “Vahimə təşkilatı” da var idi [Hacıyev, 1997. s.59-60].

Daşnaksütyunun əvvəllər müəyyən bir proqramı yox idi. Onlar ümumi amal kimi müxtəlif yollarla da olsa Türkiyədə yaşayan ermənilər üçün siyasi və iqtisadi müstəqillik əldə etməyi qarşılarına məqsəd qoymuşdular. Ancaq onların bu məqsədi Rusiyaya dost olan ermənilərin ürəyincə deyildi. Çünki onlar düşünürdülər ki, bu məqsəd Rusiyaya açılan Ağ dəniz yolunu bağlaya bilərdi. Buna görə də komitəçilər öz düşüncələrini açıq söyləyə bilmir, yalnız “siyasi və iqtisadi yollardan müstəqillik” istəməklə kifayətlənirdilər. Daşnaksütyun ilk vəzifə kimi Osmanlı ərazisinə terrorçu qruplar daxil etmək, oradakı erməniləri silahlandırmaq, onları təxribat üçün hazırlamaq, üsyana rəhbərlik edəcək rəhbərləri yetişdirmək və nəticədə üsyanlar təşkil etməyi qarşısına qoymuşdu. Erməni yazıçısı M.Vartanyan özünün “Daşnaksütyun tarixi” adlı kitabında belə yazırdı: “Daşnaksütyun komitəsinin parolu budur: türkü hər yerdə və hər cür şərtlər altında vur-öldür, sözündən dönənləri, erməni agentlərini, xainləri yox et, intiqam al”.

Üsyan etmək Daşnaksütyunun əsas məqsədi idi. Onlar bu üsyan nəticəsində Bolqarıstandakı kimi müstəqillik əldə etmək istəyirdilər. Komitənin əsas hərəkətverici qüvvəsi gənclər idi. Gənclərə arxalanaraq onlar arasında hürriyyət və müstəqillik ideyalarını yaymağa çalışırdılar.

Komitə bununla yanaşı demokratiya prinsiplərini də müdafiə edirdi. Ona görə ermənilərin zəngin təbəqəsi yeni qurulan Daşnaksütyun komitəsinə qoşulmaq istəmirdilər. Komitənin tərəfdarları kəndlilər, əkin sahibləri, keşişlər, tacirlər, müəllimlər, həkimlər, məmurlar, universitet əməkdaşları və sənətkarlar idi. Əvvəllər Daşnaksütyun komitəsi Hnçaq komitəsi ilə birləşmək istəyirdi, lakin Hnçaqın ideyaları Karl Marksın prinsiplərinə əsaslanırdı. Buna əsasən onlar erməni işçi sinfi üçün mübarizə aparmaq istəyirdilər.

Daşnaksütyun sonralar bir terror təşkilatı kimi 1896-cı ildə Osmanlı bankına basqın etmiş, 1904 cü ildə ikinci Sasun üsyanını, 1905-ci ildə Yıldız sui-qəsdini həyata keçirmişdir. Hələ 1878-1879-cu illərdə rusların Osmanlı dövlətinə müharibə etməsindən dərhal sonra Daşnak partiyasının orqanı olan «Horizon» qəzeti belə bir məlumat yaymışdır: “Ermənilər Osmanlını parçalamaq istəyən dövlətlərin yanında dərhal yer almışlar, bütün güclərini tərəddüd etmədən Rusiyanın ixtiyarına vermişlər. Ayrıca könüllü alaylar da təşkil etmişlər. Türk ordusunun irəliləməsi halında isə erməni əsgərləri silahları ilə birlikdə dəstələr təşkil edib ruslarla birləşməlidirlər”. Bununla da ermənilərin əsl məkrli siyasəti ortaya çıxmış olur. Çünki onlar çox gözəl başa düşürdülər ki, bu müharibənin olması ermənilər üçün böyük fürsətdir. Halbuki,

Osmanlı imperiyasında vətəndaşlıq hüququ olmalarına baxmayaraq, imkan düşdükcə mətbuat vasitəsilə erməni ictimaiyyətinin Rusiyaya daha da meyl etməsinə çalışırdılar [Feigl, 2007. s.70].

Hələ 1876-cı ildə Osmanlı dövlətində sultan II Əbdülhəmidin hakimiyyətində ölkədə məşrutiyyət elan edildi. O gün Avropa dövlətlərinin İstanbuldakı səfirləri Topxanada bir araya gəlmiş, Hersek və Bolqarıstan üsyanlarını müzakirə etdilər. Konfransda iştirak edən erməni patriarxı Nerses onlara müraciət edərək konfransa erməni mövzusunun da müzakirə edilməsini təklif etdi. Lakin mənfi cavab alan patriarx konfrans iştirakçılarına belə demişdir: “Sizlərin maraq və rəğbətinizi qazanmaq üçün bizim də üsyan etməyimiz lazımdırsa, belə bir hərəkatı başlatmaqda bizim üçün bir çətinlik yoxdur.” O bunu deyərək hazır olduqlarını bildirmiş oldu [Qaraoğlu, 2007. s.73-75].

Daşnaksütyun separatçı fəaliyyətini açıq-aşkar həyata keçirməyə başladı. 1890-cı ildə ilk dəfə belə bir bildiriş yayımlandı: “Bu gün Avropa insan haqlarını müdafiə etməyə başlamış olan bir xalqı, bütün bir milləti görür. Belə tarixi bir böhran zamanında vətənpərvərləri maraqlandıracaq olan məsələ bütün ixtilal qüvvələrini birləşdirmək, ortaq bir cəbhə qurmaqdır. Buna görə erməni ixtilal cəmiyyətləri ittifaqı bütün ermənilərə müraciət edərək onları bir bayraq altında birləşməyə çağırır. Türkiyə Ermənistanının siyasi və iqtisadi hürriyyətini əsas məqsəd müəyyən edən ittifaq əslində xalqın hökumətə qarşı başlatmış olduğu savaşa girmiş və vətəndaş hürriyyəti üçün qanının son damlasını axıtmağı öz üzərinə götürmüşdür.

Belə olduqda, ey dostlar, müqəddəs bir məqsəd uğrunda ümumi düşmənə qarşı birləşək! Ey gənclər, hər yerdə uca məfkurənin müdafiəçisi olan sizlər, xalqla birləşin! Ey zənginlər! Siz də xalqın düşmənlərinə, tayfa bəylərinə qarşı sinələrini qoruya bilmələri üçün silah almalarını təmin edin! Ey erməni qadını! Sən də bu müqəddəs işə ruh ver! Din rəhbərləri, hürriyyət əsgərlərini uca tutun! Gözləniləcək zaman deyil... Toplanın, Vətəni, qurtulması üçün qəhrəmanca irəli götürək!”

Bu bildirişlər göründüyü kimi, partiyanın ifrat millətçiliyinin göstəricisi, bir provikasiyasıdır. Təxribat xarakterli bu səfərbərlik əslində millətin qanına yeridilmiş virus idi ki, neçə min illər keçsə də erməni uşağında, gəncində, yaşlısında bir fikir dəyişməzdir bu da türkə olan nifrət. Türkiyədə törədilən o insanlıqdan kənar qırğınlarda Daşnaksütyunun ermənilərə ünvanladığı çağırışların rolu danılmazdır [Гусейнова, 2006. s.18-19].

“Böyük Ermənistan” haqqında arzu daşnaklar üçün də qlobal olmuşdur. Daşnak liderlərindən biri olan Baqrat Sidoyan bu haqda belə etiraf edir: «Çar böyük Tiqran dövründəki antik Ermənistanın sərhədlərini bərpa etmək arzumuzdur. Lakin bizim proqramımız Sevr müqaviləsində müəyyən olunmuş

Ermənistandır». Uzun müddət Kaliforniyada qaldıqdan sonra Ermənistana qayıdan daşnaqların digər bir lideri Apo Porikyan deyir: «Böyük Ermənistan arzusu bizim milli şüurumuzun bir hissəsidir".

Daşnaksütyun partiyasının 1907-ci ildə qəbul olunmuş başqa bir nizamnaməsinin qeyd 122-ci maddəsində olunmuşdu: "hər il ən azı 50 silahlı yoldaş hazırlanmalı", 147-151-ci maddələrində "terrorçu döyüş dəstələri hazırlanmalı, hər dəstə 10 nəfərdən ibarət olmalı, qrupa daxil olan daşnak döyüşçü silahını hazır saxlamalı və təcili verilən tapşırığı yerinə yetirməkdə vaxt itirməməlidir". "Terror" başlığı adı altında verilən 155-157-ci maddələrində isə siyasi və təşkilati terrordan bəhs olunurdu [Qazıyev, 2009. s.118].

Erməni müəlliflərindən Vahan Boryan qeyd edirdi: "Daşnak komitəsi Rusiyanın imperialist əməllərinə xidmət üçün və onunla ittifaqa girərək türk millətinə zərbə vurmaq üçün ortaya çıxmışdır".

Ermənistanın partiya və dövlət xadimi olmuş Myasnikyan 1921-ci il 29 noyabr tarixli "Xorhrdaym Hayastan" qəzetində yazırdı: "Daşnakların milli siyasətinin mahiyyəti belə idi. Ermənistanı erməni olmayanlardan, ilk növbədə nifrət etdiyimiz tatarlardan və türklərdən təmizləmək: türklərə nifrət edin, müsəlmanları qırın, kəndlərini od vurub yandırın, əmlaklarını talan edin. Bu yolla özünüzdə "xmbabed" (ermənicə başçı, lider) ruhu aşılayın." Ancaq ermənilər qeyri-türk olanlardan da intiqamlarını alırdı, xüsusən də yüksək vəzifəli məmurlardan. Belə ki, Ermənilər 14 oktyabr 1903-cü ildə ilk terror aktlarından birini onların "siyasətini" dəstəkləmədiyi üçün Qafqazın mülki işlər rəisi knyaz Qolitsinə qarşı həyata keçirdilər [Məmmədli, 2004. s.38].

## 5.Nəticə

Erməni terror təşkilatlarının məqsədləri, əsasən erməni xalqının hüquqlarını və azadlığını təmin etmək, onların üzləşdiyi basqılara qarşı mübarizə aparmaq və tarixən ermənilərin yaşadığı torpaqlarda öz dövlətlərini qurmaqdan ibarət idi. Bu məqsədlərə çatmaq üçün, zaman-zaman, müxtəlif silahlı və qeyri-silahlı tədbirlərdən istifadə etmişlər. Lakin bu mübarizə, həm də gərgin siyasi və diplomatik nəticələrə səbəb olmuşdur. Erməni terror təşkilatlarının silahlı və qeyri-silahlı mübarizəsi, zamanla regionda terrorizmin qəbul edilməsi və bunun bir çox ölkə tərəfindən mübarizə strategiyalarına daxil edilməsi ilə nəticələndi. Bu, həm ermənilərin, həm də digər xalq və millətlərin həyatına ciddi mənfi təsir göstərdi. Öz məqsədlərinə çatmaq üçün terrorizmə və silahlı qiyamlara başvuran bu təşkilatlar, həmçinin onların hərəkətlərinin beynəlxalq arenada mənfi mənada tanınmasına və bu fəaliyyətlərdən dolayı mühakimə olunmalarına səbəb oldular.

## ƏDƏBİYYAT

**1.** Feigl, E. (2007). *Ermeni mitomanyası*. Ankara.
**2.** Qazıyev, Y. (2009). *Erməni məsələsi – yalanlar və gerçəklər*. Bakı.
**3.** Qaraoğlu, F. (2007). *Ermənilər və həqiqətlər* (I cild). Bakı.
**4.** Гусейнова, И. (2006). *История народов Кавказа*. Баку.
**5.** Hacıyev, S. (1997). *Türkiyə–Rusiya münasibətləri və erməni terroru: XIX əsrin sonu – 1920-ci ilədək*. Bakı.
**6.** Nəcəfov, B. (2001). *Düşmənin iç üzü* (I cild). Bakı.
**7.** Məmmədli, A., & Allahyarova, N. (2004). *Erməni elitasının etirafları*. Bakı.
**8.** McCarthy, J., & McCarthy, C. (1989). *Turks and Armenians*. Washington.
**9.** Мустафаев, Р. (2002). *Преступления армянских террористических и бандитских формирований против человечества (XIX–XXI вв.): Краткая хронологическая энциклопедия*. Баку.
**10.** Малевил, Ж. (1915). *Армянская трагедия*. Вашингтон.

## REFERENCES

**1.** Feigl, E. (2007). *The Armenian mythomania*. Ankara. (in Turkish)
**2.** Gaziyev, Y. (2009). *The Armenian issue: Lies and realities*. Baku. (in Azerbaijani)
**3.** Qaraoğlu, F. (2007). *Armenians and truths* (Vol. 1). Baku. (in Azerbaijani)
**4.** Guseynova, I. (2006). *History of the peoples of the Caucasus*. Baku. (in Russian)
**5.** Hajiyev, S. (1997). *Turkish-Russian relations and Armenian terror from the late 19th century to 1920*. Baku. (in Azerbaijani)
**6.** Najafov, B. (2001). *The enemy's true face* (Vol. 1). Baku. (in Azerbaijani)
**7.** Mammadli, A., & Allahyarova, N. (2004). *Confessions of the Armenian elite*. Baku. (in Azerbaijani)
**8.** McCarthy, J., & McCarthy, C. (1989). *Turks and Armenians*. Washington, DC. (in English)
**9.** Mustafayev, R. (2002). *Crimes of Armenian terrorist and bandit formations against humanity (19th–21st centuries): A brief chronological encyclopedia*. Baku. (in Russian)
**10.** Malevil, J. (1915). *The Armenian tragedy*. Washington, DC. (in Russian)